Azərbaycan ordusu.- 2020.- 8 noyabr. S. 7.

*9 Noyabr Dövlət Bayrağı Günüdür*

# Bayraqlarımızın əzəmətlə dalğalanmasını ürəyimizə köçürüb yaşayacağıq!




Müharibə həmişə bir qədər vahimə, bir qədər də səksəkə duyğusu yaradır. Uşaqlıqda bu duyğuları biz də yaşamışıq, müharibənin nə olduğunu dərk edəndən sonra ədalətli müharibələrin gərəkliyini dərk etmişik. Onu da dərk etmişik ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə bu müharibəni aparacaq və qalib gələcək, torpaqlarımız işğaldan azad ediləcək. Biz də illərlə bu niyyətlə yaşamışıq.

Sentyabrın 27-də əks-hücum əməliyyatı kimi başlayan Vətən müharibəsi hər bir azərbaycanlının inamını artırdı. Vətən müharibəsinin başlaması birinci Qarabağ müharibəsi veteranlarının, qazilərin, əlillərin, biz gənclərin, ümumən ictimaiyyətin inamını kükrətdi, hamı Vətən müharibəsini xalqın istəyini gerçəkləşdirəcək döyüşlər bildi. Vətən müharibəsi bu gün uğurla, qələbələrlə davam edir. Döyüşlər başladığı ilk vaxtlarda erməni ordusunun hissələri bir qədər ciddiliklə müdafiə oluna bilirdi. Ordumuzun qətiyyətli döyüşü onun müdafiə səddini darmadağın etdi, ilkin qələbələr qazanıldı. Sonrakı döyüşlərdə neçə-neçə strateji yüksəklik, yüzlərlə kənd, üç qəsəbə, dörd şəhər işğaldan azad edildi, düşmənin yüzlərlə tankı, PDM-i, artilleriya qurğusu, uçuş aparatı, minlərlə canlı qüvvəsi məhv edildi. Qadir Azərbaycan Ordusunun qalib əsgərləri işğaldan azad etdiyi ərazilərdə qalibiyyət bayraqlarımızı dalğalandırdı. Hamı kimi, biz gənclər də bundan həm qürur duyduq, həm də bu qələbələrin sonda Böyük Qələbəylə nəticələnəcəyinə inamımızı daha da artırdı.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun son döyüşü qürurla xatırlanır. Biz qürurla xatırlayırıq, düşmənsə vahimə ilə. Qəhrəmanın döyüşdüyü və şəhid olduğu mövqedə, Xudafərin körpüsündə Dövlət bayrağımızın dalğalanması "Mən azərbaycanlıyam!" deyənlərin hamısının sevincini kükrətdi. Bir daha inandıq ki, Dövlət bayraqlarımız bütün ərazilərimizdə əzəmətlə dalğalanacaqdır. Dövlət Bayrağı Günü ərəfəsində bu kükrəyiş daha həssaslıqla yaşanılır.

Xudafərin körpüsü düşməndən azad ediləndə döyüşçülərin dövlət başçısına verdiyi raportu dinləyəndə xəyalən Cıdır düzündə sonuncu güllədən sonra veriləcək raportu eşitdik: Azərbaycan Ordusu döyüş əmrini yerinə yetirdi! Necə qürurlu raport olacaq! Azərbaycan bu raportun sevincini dünyəvi duyğularla qoşa yaşayacaqdır.

Döyüşlər davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi bir fikri biz gənclər də Vətən müharibəsinin qələbə ilə başa çatacağına zəmanət bilirik: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Dövlət başçımızın bu inamı Azərbaycanımızın inamıdır. Yaxın vaxtlarda Böyük Qələbənin sevincini bütün məmləkətimiz boyunca bayraqlarımızın əzəmətlə dalğalanmasını ürəyimizə köçürüb yaşayacağıq!

**Şəbnəm BEHBUDZADƏ**